**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq reytinqlər
üzrə Komissiyanın sədri, Azərbaycan
Respublikası Baş nazirinin birinci
müavini Yaqub Eyyubov

__________________

19.04.2024-cü il

**Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Beynəlxalq ticarət" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi**

| Sıra №-si | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|
| **1. Beynəlxalq ticarətlə bağlı qaydaların keyfiyyəti** | | | | |
| 1.1. | İxrac əməliyyatları üzrə hesablaşmaların aparılması qaydalarının təkmilləşdirilməsi məqsədilə hazırlanmış layihələrin razılaşdırılması prosesinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada başa çatdırılması və layihələrin yekun variantının aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2024 | İqtisadiyyat Nazirliyi (o cümlədən İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO), Mərkəzi Bank, Dövlət Gömrük Komitəsi, Ədliyyə Nazirliyi | Kamran Əhmədov, Tural Hacılı, Ataxan Həsənov, Azərxan Əsədli, Aytən Hacıyeva |
| 1.2. | Metal qırıntı və tullantılarının ixracına tətbiq olunan qadağanın ixrac rüsumu ilə əvəz edilməsi məqsədilə hazırlanmış normativ hüquqi akt layihələrinin razılaşdırılması prosesinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada başa çatdırılması və layihələrin yekun variantının aidiyyəti üzrə təqdim edilməsi | | İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi | Kamran Əhmədov, Fuad Məmmədov, Şaban Abdullayev |
| 1.3. | Prioritet ölkələr müəyyənləşdirilərək onlarla preferensial və sərbəst ticarət sazişlərinin imzalanması imkanlarının araşdırılması və nəticələri barədə Komissiyaya məlumat verilməsi | | İqtisadiyyat Nazirliyi (o cümlədən AZPROMO), Dövlət Gömrük Komitəsi | Xəzər Bəşirov, Tural Hacılı, Fuad Məmmədov, Azərxan Əsədli |
| 1.4. | İdxal olunan xammal və materialların struktur təhlili və idxal gömrük rüsumlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi | Xəzər Bəşirov, Kamran Əhmədov, Fikrət Şirinov, Fuad Məmmədov, Namiq Şalbuzov |

| | | | | |
|---|---|---|---|---|
| 1.5. | Mübahisələrin həlli üzrə onlayn mexanizmlərlə bağlı beynəlxalq təcrübənin araşdırılması, mövcud mexanizmlərin tətbiqinin müsbət və mənfi məqamlarının təhlil edilməsi və nəticələri üzrə müvafiq təkliflərin əks olunduğu təqdimatın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.07.2024 | İqtisadiyyat Nazirliyi | İlqar Qasımlı,<br>Aqşin Əmirov,<br>Elvin Əlizadə |
| 1.6. | Azərbaycanda elektron ticarət haqqında qanunvericiliyin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi məqsədilə təhlillərin aparılması və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.08.2024 | İqtisadiyyat Nazirliyi,<br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi,<br>Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi | Aqşin Əmirov,<br>Fariz Əliyev,<br>Günay Məmmədova |
| 1.7. | Beynəlxalq Əmək Təşkilatının bir sıra prinsiplərinin ikitərəfli ticarət sazişlərinə daxil edilməsi imkanlarının təhlil edilməsi və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Əminə Vahabova,<br>Səbinə Talışinskaya,<br>Günel Nağdəliyeva |
| 1.8. | İdxal tariflərinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un məqsədlərinin yerinə yetirilməsi baxımından təhlil edilməsi və zəruri hesab edilən optimallaşdırma ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | | İqtisadiyyat Nazirliyi,<br>Dövlət Gömrük Komitəsi,<br>Maliyyə Nazirliyi | Kamran Əhmədov,<br>Fuad Məmmədov,<br>Azərxan Əsədli,<br>Şaban Abdullayev |
| 1.9. | Mallarla və xidmətlərlə ticarət sahələrində qanunvericilik aktlarının qəbul edilməsi zamanı tənzimləyici təsirin qiymətləndirilməsi və qanunvericilik aktları layihələrinin özəl sektorun nümayəndələri ilə əvvəlcədən müzakirəsinin məcburi mexanizmlər kimi tətbiq edilməsi imkanlarının araşdırılması və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2024 | Ədliyyə Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi (o cümlədən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), AZPROMO) | Aytən Hacıyeva,<br>Kamran Əhmədov,<br>Nicat Eyvazzadə,<br>Zaur Qardaşov,<br>Tural Hacılı |
| 1.10. | Uyğunluğun qiymətləndirilməsi sxemlərinin (modullarının) ümumi siyahısı və həmin sxemlərin (modulların) ətraflı müddəalarını ehtiva edən uyğunluğun qiymətləndirilməsi prosedurlarına dair normativ hüquqi akt layihəsinin müvafiq dövlət orqanları ilə razılaşdırılması prosesinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada başa çatdırılması və layihənin yekun variantının aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2024 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti),<br>Ədliyyə Nazirliyi,<br>digər aidiyyəti qurumlar | Elməddin Quluyev,<br>Aytən Hacıyeva |
| 1.11. | “Texniki reqlamentlərlə əhatə olunan malların siyahısı”nın təsdiq olunması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsinin müvafiq dövlət orqanları ilə razılaşdırılması prosesinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada başa çatdırılması və layihənin yekun variantının aidiyyəti üzrə təqdim edilməsi | | | |
| 1.12. | Beynəlxalq hava nəqliyyatı ilə əlaqədar havanın çirklənməsinin azaldılması ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | Ekologiya və Təbii Sərvətlər Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>“Azərbaycan Hava Yolları” QSC | Fəridə Ələkbərova,<br>Kamran Əhmədov |
| 1.13. | Qida təhlükəsizliyi sahəsində laboratoriya sisteminin inkişaf etdirilməsi, regionlarda laboratoriyaların sayının alternativ mənbələr hesabına artırılması istiqamətində zəruri tədbirlərin görülməsi | | Qida Təhlükəsizliyi Agentliyi,<br>İqtisadiyyat Nazirliyi (AZPROMO) | Nahid Əsədov,<br>Tural Hacılı |

| | | | | |
|---|---|---|---|---|
| 1.14. | Karbon qiymət tənzimlənməsi mexanizmlərinin (karbon emissiya sxemi, sərhəd karbon tənzimləmə mexanizmləri və s.) tətbiqi imkanlarının araşdırılması, nəticələrinin işçi qrupun tematik iclasında müzakirə olunması və müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.11.2024 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi | Fəridə Ələkbərova, Kamran Əhmədov |
| 1.15. | "Orta Dəhliz" vasitəsilə daşınan yüklərə münasibətdə vahid tranzit yük sənədinin və asanlaşdırılmış gömrük prosedurlarının tətbiqi ilə bağlı dəhliz üzərində yerləşən dövlətlərin aidiyyəti qurumları ilə müzakirələrin aparılması və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC | Fariz Əliyev, Ülvi Məmmədov, Fərhad Xəlilov, Heydər Cəfərli, Səbuhi Mənsimov |
| 1.16. | Beynəlxalq ticarət müqavilələrinin ekoloji cəhətdən qiymətləndirilməsi üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi | Fəridə Ələkbərova, Aqşin Əmirov |
| 1.17. | İriqabaritli yüklərin ölkə ərazisindən daşınması üçün xüsusi icazələrin elektron qaydada verilməsi imkanının təmin edilməsi | | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi | Fariz Əliyev, Ülvi Məmmədov |
| 1.18. | Bakı Limanı ərazisində idxal-ixrac gömrük rejimi prosedurlarının tam olaraq tətbiq edilməsi və müvəqqəti saxlanc anbarlarının beynəlxalq standartlar üzrə tam funksional fəaliyyət göstərməsi istiqamətində müvafiq tədbirlərin görülməsi | İl ərzində | Dövlət Gömrük Komitəsi, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Azərxan Əsədli, Səbuhi Mənsimov, Fariz Əliyev |
| 1.19. | Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında "Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" üzrə danışıqlar çərçivəsində "Mallarla ticarət" və "Xidmətlərlə ticarət" fəsillərinin razılaşdırılması istiqamətində müvafiq işlərin görülməsi | | İqtisadiyyat Nazirliyi, digər aidiyyəti qurumlar | Gülçin Ələsgərova |
| 1.20. | Azərbaycan ixracatçılarının öz məhsullarını rəqəmsal ticarət platformaları (Alibaba, Amazon, Ebay və s.) vasitəsilə beynəlxalq bazara çıxarmaları ilə bağlı sahibkarlar arasında maarifləndirmə işlərinin aparılması və müxtəlif platformalarda məhsulların satışının təmin olunması | | İqtisadiyyat Nazirliyi (AZPROMO, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi, KOBİA), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Mərkəzi Bank | Tural Hacılı, Kənan İbrahimov, Zaur Qardaşov, Fariz Əliyev, Ataxan Həsənov |
| 1.21. | Beynəlxalq ticarət prosedurlarının və qaydalarının ardıcıllıqla və geniş izah edildiyi müvafiq dövlət internet səhifəsinin və ya informasiya portalının yaradılması | | İqtisadiyyat Nazirliyi (AZPROMO və KOBİA), Dövlət Gömrük Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Tural Hacılı, Zaur Qardaşov, Fuad Məmmədov, Fariz Əliyev |
| 1.22. | Dövlət Gömrük Komitəsinin risklərin idarə edilməsi sisteminin yenidən qurulması ilə bağlı icra olunan layihə çərçivəsində dərhal buraxılış üçün seçilən yüklərin xüsusi çəkisi üzrə yenilənən göstəricilər barədə məlumatların Komissiyaya təqdim edilməsi | Hər rüb | Dövlət Gömrük Komitəsi | Pərvin Rəhimli |
| 1.23. | Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü prosesi çərçivəsində bir sıra ölkələrlə aparılan ikitərəfli danışıqların yekunlaşdırılması və müvafiq Protokolların imzalanması istiqamətində zəruri addımların atılması | İl ərzində | İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi | Gülçin Ələsgərova, Nemət Əliyev |

| | | | | |
|---|---|---|---|---|
| | **2. Məlumatlandırma və kommunikasiya tədbirləri** | | | |
| 2.1. | Azərbaycanda 2023-cü il üzrə real tətbiq olunan orta çəkili tarif dərəcəsi, habelə “0 faiz” idxal rüsumu tətbiq olunan məhsullar barədə statistik göstəricilərin (o cümlədən sərbəst ticarət sazişləri, sənaye parklarının rezidentləri, investisiya təşviqi sənədi verilmiş hüquqi və fiziki şəxslər, idxal gömrük rüsumlarından azad edilmiş digər kateqoriyalar ayrıca göstərilməklə) aidiyyəti beynəlxalq qurumlara ötürülməsi üçün İqtisadiyyat Nazirliyinə təqdim edilməsi və İqtisadiyyat Nazirliyi tərəfindən həmin məlumatların tələb olunan formada Ümumdünya Ticarət Təşkilatına (ÜTT), Beynəlxalq Ticarət Mərkəzinə və Dünya Bankına ötürülməsinin təmin edilməsi, habelə ÜTT-nin müvafiq məlumat bazalarında (www.tao.wto.org, www.tariffdata.wto.org) Azərbaycanın ticarət profilinin yenilənməsi | 01.07.2024 | Dövlət Gömrük Komitəsi,<br>İqtisadiyyat Nazirliyi | Fuad Məmmədov,<br>Budaq Quliyev |
| 2.2. | Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü ilə bağlı işçi qrupun növbəti iclasının keçirilməsi | 01.08.2024 | İqtisadiyyat Nazirliyi,<br>Dövlət Gömrük Komitəsi,<br>Xarici İşlər Nazirliyi,<br>digər aidiyyəti qurumlar | Gülçin Ələsgərova,<br>Fuad Məmmədov,<br>Nemət Əliyev |
| 2.3. | Türk Dövlətləri Təşkilatı çərçivəsində Rəqəmsal İqtisadiyyat üzrə Əməkdaşlıq Sazişinin razılaşdırılması ilə bağlı əlaqələndirmə işlərinin aparılması | 01.10.2024 | İqtisadiyyat Nazirliyi,<br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi,<br>digər aidiyyəti qurumlar | Elmar Hacıyev,<br>Fariz Əliyev |
| 2.4. | Sahibkarların xarici ticarət sahəsi üzrə bilik və bacarıqlarının artırılması məqsədilə onlar üçün təlimlərin (ticarət qanunvericiliyi, gömrük prosedurları, qida təhlükəsizliyi və digər mövzularda) keçirilməsi | Hər rüb | İqtisadiyyat Nazirliyi (KOBİA və AZPROMO),<br>Dövlət Gömrük Komitəsi,<br>Qida Təhlükəsizliyi Agentliyi | Zaur Qardaşov,<br>Tural Hacılı,<br>Məhəmməd Nəcəfli,<br>Nahid Əsədov |
| 2.5. | Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlük prosesi və Birləşmiş Ərəb Əmirlikləri ilə hərtərəfli iqtisadi tərəfdaşlıq sazişi üzrə görülmüş işlər barədə məlumatların Komissiyaya təqdim edilməsi | | İqtisadiyyat Nazirliyi | Gülçin Ələsgərova,<br>Bəhruz Baxşəliyev |
| 2.6. | Türk Dövlətləri Təşkilatının Ticarətin Asanlaşdırılması üzrə Strategiya sənədinin icrası ilə bağlı Tədbirlər Planının hazırlanması prosesinin əlaqələndirilməsi | İl ərzində | | |
| 2.7. | Türk Dövlətləri Təşkilatı çərçivəsində yeni təşəbbüslər və görülən işlər barədə işçi qrupun üzvlərinin məlumatlandırılması | Hər rüb | | Bəhruz Baxşəliyev |
| 2.8. | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun<br>bütün üzvləri |
| 2.9. | Beynəlxalq reytinqlər üzrə hesabatları hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkədə faktiki göstərici və ya qanunvericilik tələbi barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması | | | |